# Bir günün nurunu yığsaq bir yerə...

**Sehirli işıq kimi**

Ömür var ki,... yaşayasan təzədən... Ömür var ki... yaşamasan yaxşıdır... O ömür ki, qarğa kimi illər yüzü ötsə də, maddiyyət... başqalarının haqqı üzərində güclənərək insanlara üzlər verib iç üzünü örtsə də, öz yolunu seçməyərək axınların çilləkənlərində ilişərək məhvə doğru getsə də, pisliklərin girdabında göz qamaşdırıcı bir həyatı yaşasa belə bir gün ömür başa çatar... Və o ömürlər arzu olunsa belə təkrar yaşanılmaz. Torpaq onu qoynuna alsa belə özləri özlərindən məhv olaraq silinər... Adları da, cisimlərindən tez çürüyər, izi belə qalmaz. Onlardan qalan yalnız kol-kos basmış məzar daşları olar. Və məzar daşları belə ilk anlar aləmə "meydan" oxusa da içdəki çirkab və günahlar üzündən bitkilərlə əhatə olar... Qəlblərdən də silindiyi kimi, şəcərələrdən də silinməzlər. Ömür var ki,... Yaşadığı kiçicik ömürlərlə yalnız öz şəcərəsinə deyil, insanlığın şəcərəsinə adı hər hərfi ilə bir mayak kimi yazılar! Ömrü günəşlə başlar, ən parıltılı ulduzla sona yetər hər gün. Hətta ən qatı duman belə adları örtə bilməz; ən güclü yağışlar belə yuya bilməz o ömürləri, ən sazaqlı qış qarı o ömürləri dondurmaz. Bax belə ömür yaşayanlar təzədən də yaşanılmaz...

Bu dünyanın ən pakları kimi əbədiyyən yaşarlar çünki... Az, ancaq o qədər mənalı yaşarlar ki,...Yaşadıqları hər an cismən olmasa da qəlbən daima sehrli bir işığa dönüb könüllərdə yaşayar, yaşayan ömürləri rövnəqləndirər.

**Mavi ənginliyin çağırış izləri**

Sadə bir ailənin üç övladdan sonuncusu idi: Rəşad, İlahə və Aqşin Bina evində yaşardı və arzuları, oyunları da bina evinə sığmazdı, qəfəs kimi görünərdi ona bu ev. Geniş, həyəti olan ev istərdi həmişə. "Qutu" kimi bir evdə istədiyi dava-dava oyununu belə oynaya bilməz, bitki və heyvanat aləminin sirlərini öyrənə bilməzdi: Ona görə təbiət qoynunda olmaq, dostları ilə gözəllikləri incələmək, qəlbən arzularının "hərəkətində" olmaq istərdi. Yaralı həşəratları və heyvanları sağaltmaq, həyata döndərmək onun gələcəkdə həkim olacağının ilk müjdəsi sayılırdı. Bütün canlılara yenidən həyat vermək istəyi və "dava oyunları" , "oyuncaq" etməsi elə bil nə isə pıçıldayırmış... Məktəbli ikən gündəliyində "Unutma" bölməsində işğal altında olan ərazilərimizi əzbərləyərkən yalnız Xocavəndin altını cızması... Uşaq yaşlarından yazdığı məktubları...

Uca Tanrıdan ailəsinə firavan arzularını əks etdirən çəkdiyi rəsmlər, istəklərini əks etdirən məktubu, evlərinə son gəlişində otaqda nə isə səs gəldiyini valideynlərinə dəfələrlə söyləməsi, sanki onun həyatının gələcək düzənindən xəbər verirdi... Amma o illərdə adi görünən hər xırda nüanslar bu gün onun həyatının ən inandırıcı təzahürçüsü sayılırdı və düşündükcə o qədər belə təzahürlər "Şahidlənir ki...

**Kim O?...**

O bizim Aqşin, sadəcə tanıdığımız rəssam Faiq müəllimin halal zəhmətlə böyüdüb boya-başa çatdırdığı oğul balası. Dilrubə xanımın xanım xarakteri ilə tərbiyələnmiş bir övlad. Aqşin Faiq oğlu Ənvərli 1994-cü il oktyabrın 10-da Qəbələ şəhərində anadan olub. 2001-2012-ci illərdə Qəbələ şəhər N. Apayev adına 4 saylı orta məktəbində təhsil alıb.O bütün müəllimlərini sevərdi, ancaq ilk sinif



müəllimi Aybəniz Həsənovanın, sonra sinif rəhbərləri olmuş Sara və Arzu müəllimə, ona kimi kimya fənini daha da dərindən öyrədən Əhməd Mirzəliyev və Ramid Rəşidovun adını həmişə qürurla çəkərmiş.

2005-2009-cu illərdə Qəbələ İncəsənət məktəbində rəssamlıq ixtisası üzrə təhsil alıb. 2012-2018-ci illərdə Azərbaycan Tibb Universitetində təhsil almışdır.

Aqşin 2018-ci ildə tibb xidməti leytenantı rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlamışdı. Bir müddət sonra isə Xüsusi Təyinatlı Qüvvələrin Tibb Xidmətinin rəisi vəsifəsinə təyin edilmişdi.

**İnamla, qeyrətlə qorunur-Vətən**

Ağ xalatın işığı idi onun həyatının tənzimləyicisi. Elə bu işıqda onu daima insan məfhumunu uca tutmağa səsləyirdi... Müharibə başlayanda peşəsi ilə bərabər özünün də bir vətən övladı kimi döyüş bölgəsində olmasının vacibliyini bilirdi. Ona görə də erməni işğalçılarının faşistliyinə, vandalizminə son qoymaq və düşmən tapdağında olan torpaqlarımızın azad olunmasında fəal iştirakçı olmaq istəyilə 2020-ci il oktyabr ayının 15-də Bakıya gəldi və oktyabrın 16-da Füzuli döyüş bölgəsinə yollandı.



Aqşin müharibənin labüdlüyünü bilirdi.

Ali Baş Komandanın qətiyyətli çıxışları və qərarlarını daim dəstəkləyən gənc həkim torpaqlarımızı işğaldan təmizləyəcəyinə və vətən övladlarının qisas müharibəsində şücaətlər göstərəcəyinə inanırdı. Elə bu inamla da əsgərlərimizin sağlamlığı keşiyində daim ayıq-sayıq idi:

O, Füzulinin, Cəbrayılın, Qubadlının, Şuşanın, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə həm yaralanan hərbçilərə yerindəcə tibbi yardım etmiş, həm də onlarla bərabər çiyin-çiyinə döyüşmüşdür.

Döyüşlər zamanı dəfələrlə yaralansa da (5 güllə yarası almış, 2 barmağını itirmişdi) heç vaxt geri çəkilməmiş, yüzlərlə döyüşçünü həyata qaytarmışdır. Döyüş yoldaşının dediyinə görə, yaralı halda xərəkdə aparılarkən belə yaralı döyüşçüyə yardım edərək onu öz yerinə-xərəyə qoyaraq tibb mərkəzinə göndərən Aqşin döyüşçülərin daim keşikçisi, həyatvericisi olmuşdur:

Noyabrın 6-da Xocavənd döyüşlərində şəhid olmuşdur...

**O mənim qəlbimdə ünvan tapırdı**

Aqşin çox danışmağı sevməzdi... Sirr dolu bir gənc idi. Ən yaxın dostları ta uşaqlıqdan Elvin və Ziya idi. Yaxın qonşu idilər; Sirri sözü bir dost idilər. Tələbəlik illərində belə bu dostluq daha da doğmalaşmışdı. Bir sinifdə oxuduğu, tələbəlik illərinin və iş kollektivində qazandığı dostları da onun xarakterinə bələd idi. Boya-başa çatdığı ailə, aldığı tərbiyə onun dünyagörüşünün və xarakterinin formalaşmasında başlıca amil idi.

Aqşinin sevgisi də xarakteri kimi sirli idi. Sevgisini sevdiyi qız daha gözəl duyurdu. İki qəlbin o qədər arzu toplumu var idi ki... Tələbəlik illəri dövründə sevmişdi.

Yalnız bacısı İlahəyə və yaxın dostu Elvinə demişdi bu sirrini...

Aqşinin məzarını ziyarətə öz rəfiqəsi və Aqşinin ən yaxın dostu ilə gəlmişdi o qız. Sevdiyi oğlanın şəhid xəbərini eşidib həkim müalicəsi ilə özünə gələn Aynur dekabr ayında təptəzə təbii gül dəstəsi ilə onun görüşünə gəldi... Valideynləri ilə görüşdü... Onlara doğma biri kimi sarıldı... Məzarı üstündən isə kiçicik bir daş parçası götürdü...

O daş parçasını barmağına üzük taxmaq arzusu ilə yaşayan və arzuları gözlərində donan bir gənc kimi sinəsində boyunbağının içərisinə yerləşdirərək boynunda gəzdirir.

Sanki Məmməd Araz öz şeirini Aqşin və Aynur sevgisinə həsr etmişdi:

***Sən mənim yazıma birinci yağış,***
***Sən mənim qışıma sonuncu qardın.***
***O mənim qəlbimdə ünvan tapmamış,***
***Pərişan bir eşqi hara apardın...***

***Bir ulduz əbədi buluda girdi,***
***Bir çiçək göyərib soldu yarımçıq***

Aqil və zövqünün vəhdəti ilə sevmişdi Aqşin! Sevilməyə dəyərdi Aynur, Aqşinin sevgisinə, adına layiq bir sevgi dolu Azərbaycan gözəli...

**Bir yazıya sığmaz ömür**

Şəhidlər bir ömür yaşamır ki,... Bir ömür çox qısa. Şəhidlər əbədi yaşar. Xalqını, Vətənini, torpağını sevər, qayasında mamır olub bitərək Vətəni vətən edər, milyonların qəlbində əbədi məskən salaraq milyonların ömründə yaşayarlar, həm də nəsilbənəsil. Şəhidlər ruhən yaşayarlar, Aqşin kimi... onun ömür salnaməsi bir qəzet yazısına sığmaz.

Kitablara sığışdırmaq, dastanlara döndərmək lazım Aqşin ömrünü, qəhrəmanlığını. O bir nurdur, nur ömürlü şəhidim. Adicə bir günün nurunu bir yerə yığsaq Yer kürəsinə nə qədər nur payı düşər...

Azərbaycan torpağının 30 illik işğal altında olan ərazilərinin yağı tapdağından təmizlənməsində etdiyi qəhrəmanlığa görə Aqşin Ənvərli "Fizulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Məktəb illərində gündəliyində "Unutma!"-da altından cızdığı Xocavənddə, neytral zonada, döyüş meydanında şəhid oldu Aqşin! Günlərlə axtarışda oldu, əzizləri-xalqı onu axtardı, nəşini tapmaq üçün... Bu 11 gündə ata da, ana da, bacı da hər gün, hər an öldü-dirildi... Əzizinin ölüsünü döyüş bölgələrindən, morqlardan axtarmağın acısını yaşadı qardaşı Rəşad, qohumları... 11 gündən sonra tapılan şəhid neytral zonadan 46-şəhid arasından tapıldı... Təsadüfə bax ki... şəhidliyi ilə də 45 şəhid əzizinin həsrətinə son qoydu Aqşin! Onun nəşinin axtarışında 45 şəhid də öz doğma elinə döndü...

Şair necə də gözəl deyib:

***Bir günün nurunu yığsaq bir yerə***
***Bəs edər ən tutdun planetlərə!***

**BİBİXANIM.**

# Şəhidin doğum günü

Torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən igid oğullarımızdan biri olan Mıxlıqovaq kənd sakini şəhid Mikayıl Miğfər oğlu Mikayıllının sentyabrın 24-də doğum günü qeyd olunmuşdur. Rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, şəhidin təhsil aldığı kənd məktəbinin kollektivi və şəhidin ailə üzvləri onun məzarını ziyarət etmiş, məzarı önünə gül dəstələri qoymuş, ruhuna dualar oxunmuşdur.

Şəhidin valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə prezidenti və Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildirmişlər.




# Abidə-bulaq kompleksi

Mıxlıqovaq kəndində Vətən müharibəsində şəhadətə qovuşan şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə inşa edilən abidə-bulaq kompleksinin açılışı olmuşdur. Kompleksdə 2020-ci ilin iyul döyüşləri zamanı şəhid olan general, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Polad Həşimovun və Vətən müharibəsində canından keçərək şəhid olan Mıxlıqovaq kəndindən olan qəhrəman oğulların xatirə lövhələri yerləşdirilib. Açılış tədbirində rayon icra hakimiyyətinin və rayonun idarə və təşkilat rəhbərləri, şəhidin ailə üzvləri iştirak etmişlər. Tədbirdə çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə haqqında, şəhidlərin şərəfli yolu haqqında danışmış, onların heç zaman unudulmayacağını qeyd etmişlər. Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

